ədalət.-2017.-17 mart.-S.4.



# Reketçi "jurnalist"

***ZAKİR BAĞIR***

Hekayə

O, saatına baxdı. Gunortaya az qaldı. "Yaxşı vaxtdır,-düşündü.-Gunortanı da orada yeyərəm".

Sağ əlini pencəyini sol qoltuq cibinə saldı. Kiçik bir dəftərçəni çıxardıb vərəqlədi. Burada bir neçə idarənin adı yazılmışdı. El arasında rayon işıq idarəsi adlanan müəssisənin adı birinci idi.

"Rəsi təzədir. Özü də imkanlı ailədir."

Əlini qaldırıb taxsi saxladı. Şəstlə qabaq qapını açdı və sürücünün yanında oiturdu.

- Sür, filan idarəyə-dedi.

Sürücü dinmədi. Maşını işə saldı.

- "Görəsən mənə nə qədər pul verəcək?"

... Maşın ikimərtəbəli bir binanın yanında dayandı. O, yenə şəstlə taksidən düşüb binaya sarı addımladı.

İkinci mərtəbəyə qalxanda rəis bir neçə işçisi ilə aşağı düşürdü. Yol boyu o, işçilərinə nə isə tapşırdı. Heç kim ona fikir vermədi.

... Artıq rəis idarənin həyətində idi. İşçilərlə danışırdı. Sürücü maşının arxa qapısını açıb onu gözləyirdi.

O, cəld aşağı düşüb rəisə yaxınlaşdı:

- Mən jurnalistəm. Filan qəzetin müxbiri.

Rəsi nə qədər fikirləşdisə belə bir qəzeti xatırlaya bilmədi.

- Bu gün vaxtım yoxdur obyeklərə gedirik.

Rəsi bunu deyib maşına mindi.

Bu ona bərk təsir elədi: "Mənim kim olduğumu sonra bilərsən".

Aradan bir müddət keçdi. Filan qəzetində el arasında işıq idarəsi adlanan müəssisə və rəisi haqqında bir yazı dərc olundu. Çox qəribə idi, yuxarı təşkilatdan rəisə bir söz dedilər, nə də rəis onu axtardı.

Onun və yaşadığı məhəllədə bir neçə ailənin işığı da kəsilmişdi.

Məhəllə adamlar onu danlayırdılar:

- Nə qədər ki, bu idarədən tənqid yazmamışdın, işığımız var idi. İndi qalmışıq qaranlıqda.

Arvad da onu danlayırdı:

- Gör nə qədər kirli paltar var? Bunları əllə necə yuyum? Barı işıq olsaydı, paltar yuyan maşını...

Oğlu da deyirdi:

- Neçə gündür, televizorda çempionatı göstərirlər. Baxa bilmirəm. Artıq qonşuya getməyə də utanıram. Öz evimdə televizor ola-ola.

Reketçi "jurnalsit" gecəni birtəhər yatdı. Səhərisi günü işıq idarəsinə gəldi.

Rəisin katibəsi çay dəmləyirdi.

- Şef işdədir?

- Bəli, iclas gedir.

- Ona deyin ki, filan qəzetin müxbiri gəlib.

Katibə rəisin otağına girdi. Çox çəkmədi ki, otaqda çıxdı.

- Rəis dedi ki, gözləsin, qəbul edərəm. ayaq üstə qalmayın, oturun.

Katibə onun qabağına çay qoydu.

Reketçi "jurnalis" düşünürdü:

-"Adın nədir, Daşdəmir. Belə yumşalarsan ha. Gördün qələmin gücünü?"

Bu an otaqdan kimsə çıxdı. Ani olaraq reketçi "jurnalist"ə baxıb harasa getdi. Çox çəkmədi ki, əlində bir neçə kağız qayıdıb rəisin otağına girdi.

Reketçi "jurnalist" armudlu stəkandakı çayı təzəcə içmişdi ki, otaqdakılar bir, iki bir çıxdılar.

Zəng çalındı. Katibənin rəisin otağına firməsi ilə çıxması çox çəkmədi.

- Sizi gözləyir...

Reketçi "jurnalist" ayağa qalxdı.

... Rəis nə isə yazırdı.

- Mən filan qəzetin muxbiriyəm:

Rəis onun sözlərini kəsdi.

- Bilirəm. Yaxşı oldu, öz ayağınla gəldin. Otur.

O, rəislə üzbə-üz oturdu.

Rəisin stolu üstündə onun işlədiyi qəzet vardı. Yazdığı məqalənin bir neçə yerində qırmızı qələmlə işarələr qoyulmuşdu.

- "Yazımı oxuyub. Bəs bu qırmızı işarələr nədir görəsən?"

Nəhayət rəis yazını yazıb qurtardı. Əlini cibinə saldı.

- "Pul çıxardıb mənə verəcək. "Bizimlə işin olmasın"-deyəcək. Görəsən nə qədər verəcək?- reketçi "jurnalist" düşündü.

Rəis cibindən siqaret qutusunu çıxarıb stolun üstündəki qəzetin üzərinə qoydu. Qutuydan bir siqaret götürdü. Sonra yenə əlini cibinə salıb alışqanı çıxarıb siqareti yandırdı.

Reketçi "jurnalist"ə elə gəlirdi ki, rəis əsəbləşəcək.

Rəis sanki reketçi "jurnalist"in kabentində olmasını hiss etmirdi. İştaha ilə siqaretini çəkirdi. Dəqiqələr keçirdi. Rəisin soyuqqanlığı ona bərk təsir etmişdi.

- Yazımı oxudunuz?- Mən professionalam.

- Bilirəm,- rəis sanki onunla danışmırdı:

"Neçə-neçə adamların həyat yoldaşlarını, qızlarını, hətta 20-30 il bundan qabaq rəhmətə getmiş valideyinlərini də təhqir edirsən. nədir, nədir sənə pul versinlər. Adamları şantaj etməklə pul almaqda professionalsan".

- Siz mənim işığımı kəsmisiniz. Neçə vaxtdır, qaranlıqda qalmışam.- O, stolun üstündəki qəzetdə çap olunmuş məqaləyə işarə etdi:- Bundan da kəskin yaza bilərəm.

Rəis dinmədi. Reketçi "jurnalist"ə elə gəldi ki, ondan çəkinir.

Rəis siqareti çəkib külqabıda söndürdü. Bu an telefon zəng çaldı. Rəis dəstəyi götürdü.

Söhbət çox qısa oldu:

- Öz ayağı ilə gəlib...

O, dəstəyi yerinə qoydu.

- Biz pul verən adamların işığını kəsmirik.

- Mən təcrübəliyəm...

- Mən də təcrübəliyəm. Sənin haqqında kifayət qədər məlumat toplamışam.

... Məhəllədə yaşayırsan. Çoxdandır ki, işlətdiyin işığın pulunu ödəmirsən. Heç bilirsən, dövlətə nə qədər borcun var?

Rəis stolun üstündəki kağızlardan birini götürdü. Bir qədər ucadan oxudu. O, elə bir rəqəm dedi ki, reketçi "jurnalist"in heç ağlına gəlmirdi.

- Bizdə işıqdan istifadə edib, lakin pulunu verməyənlərin işığını kəsmişik. Sənin dövlətə borcun çox olduğuna görə və ödəmədiyin üçün səni məhkəməyə vermişik.

... O suyu süzülə-süzülə evə gəldi. Arvadı onu görən kimi:

- İndiyə kimi hardasan? -soruşdu. Cavab gözləmədən: -Məhkəmədən iki nəfər gəlmişdi səni istəyirdilər- dedi.

Sonra ona bir çağrış vərəqəsi verdi. Məhkəmdən idi. Qaz idarəsi də onu məhkəməyə vermişdi.